Təsdiq edirəm
ADMİU-nun rektoru
__________Professor Ceyran Mahmudova
"12" "sentyabr" 2025-ci il

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

ADMİU

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**7003017 – Sənətşünaslıq ixtisasının**

**Audiovizual sənətlər tarixi və nəzəriyyəsi ixtisaslaşması**

**Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.**

BAKI – 2025

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin 7003017 – Sənətşünaslıq ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi səriştələrə yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə etmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək;
- sənətşünaslıq sahəsində nəzəri və tənqidi metodları bilmək, elmi problemi formalaşdırmaq, hipotez irəli

sürmək və tədqiqat metodlarının nəticələrini əsaslandırmaq;

- yüksək ixtisaslı sənətşünas funksiyalarını həyata keçirmək;
- sahəsi üzrə müxtəlif KİV-də redaktor və ekspert kimi elmi-publisistik məqalələri yazmaq və şərh etmək;
- sənətşünaslığa dair əsərlər haqqında tənqidi məqalələr yazmaq və dərc etdirmək;
- sənətşünaslığın təbliği üçün maarifləndirmə işi aparmaq;
- konfrans, seminar, simpozium və mədəni tədbirləri təşkil və idarə etmək;
- sahə üzrə terminologiyadan düzgün istifadə etmək;
- sahə üzrə proseslərin sənədləşdirmə işlərini apara bilmək.

2.2. Təhsil proqramının sonunda məzun aşağıdakı peşə səriştələrinə yiyələnməlidir:

***Audiovizual sənətlər tarixi və nəzəriyyəsi ixtisaslaşması üzrə:***

- audiovizual sənətlər tarixi və nəzəriyyəsi sahəsində elmi-nəzəri bilikləri tətbiq etmək;
- audiovizual sənətlərin tarixini və nəzəriyyəsinin elmi əsaslarını, qanunauyğunluqlarını, metodoloji prinsiplərini bilərək bu sahədə elmi tədqiqat işi aparmaq;
- ekran sənəti, audiovizual mədəniyyət və elm sahəsində müvafiq elmi problem və mülahizələrin formalaşdırılması üçün lazımi məlumatları toplamaq, sistemləşdirib təhlil etmək;
- audiovizual sənətlər tarixi və nəzəriyyəsini mədəniyyətin inkişafı kontekstində tədqiq etmək;
- media ekologiyası və informasiya cəmiyyəti nəzəriyyələri ilə bağlı elmi biliklərə malik olmaq;
- müasir audiovizual proses, bədii cərəyanlar, kino, televiziya, digər ekran sənətlərinin üslub və janr formaları, sosial media tədqiqatları və müasir nəzəriyyələrlə bağlı biliklərini elmi-tədqiqat işində tətbiq etmək;
- audiovizual sənətlər ilə mədəniyyət və incəsənətin digər sahələrinin qarşılıqlı əlaqəsi kontekstində mültidistiplinar tədqiqatlar aparmaq;
- sosial-mədəni mühitin, o cümlədən, müasir tamaşaçı auditoriyasının tələbatını müəyyən etmək və təhlil etmək;
- audiovizual məhsulların yaradılması prosesində əldə etdiyi qənaət və nəticələri nəzərə alaraq təhlil və araşdırmalar aparmaq;
- audiovizual əsərlərin bədii məziyyətlərini sosial, mədəni və tarixi kontekstdə təhlil edərək əsərin arxitektonikasını (onun konsepsiyasının, üslubunun, icrasının əsas xüsusiyyətlərini, forma və məzmun vəhdətini) müəyyən etmək;
- ədəbi-bədii tənqidi audiovizual məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilmiş fəaliyyət növü kimi başa düşmək;
- audiovizual sənətlərin tarixi və nəzəriyyəsi ilə bağlı müxtəlif yöndə müəllif mətni yaratmaq;
- audiovizual əsərlərin yaradılmasında elmi məsləhətçi və redaktor funksiyalarını yerinə yetirmək.

## 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Audiovizual sənətlər tarixi və nəzəriyyəsi | Magistr ali elmi-ixtisas | 2 il | 120 |

3.2. Təhsil proqramı ixtisas (ixtisaslaşma) üzrə 120 (2 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1 | **Tədqiqat metodları**<br>*Bu fənn kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına diqqət yetirir. Fənn çərçivəsində tədqiqat səriştələri, kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edilməsi, verilənlərin araşdırılması, təhlil edilərək təqdim edilməsi kimi keyfiyyətin aşılanmasını nəzərdə tutur.* | 6 |
| 2 | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | 6 |
| 3 | **Tədqiqat analitikası**<br>*Bu fənnin tədrisi məlumat təhlili prosesi, məlumat növləri, məlumatların toplanma mənbələri, məlumat təhlili üzrə strategiyanın qurulması, məlumatların təhlil üçün hazırlanması və təmizlənməsi, təhlil üçün məlumatların sistemləşdirilməsi, məlumatların vizuallaşdırılması, sahəyə uyğun olaraq təhlillərdə istifadə olunacaq proqram təminatları ilə tanışlıq ("Excel", "SPSS", "Stata", "R", "MAXQDA", "Matlab", "Python" və s. kimi), ixtisas sahəsində tədqiqatlarda istifadə olunan təhlil metodları ilə təhlillərin aparılması (statistik testlər və təhlillər, kəmiyyət və keyfiyyət təhlilləri, eksperimental təhlillər, anket və sorğu təhlilləri və s. kimi) və təhlillərin əsasında müvafiq rəylərin hazırlanmasını nəzərdə tutur.* | 6 |
| 4 | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər** | 72 |
| | **Audiovizual əsərlərin sistemli və struktur təhlili**<br>Bu fənnin tədrisi audiovizual əsərlərin sistemli və struktur təhlilinə yönəlmişdir. Təhsilalanlar əsərlərin süjet, dramaturji struktur, obraz sistemi, vizual ifadə vasitələri, zaman və məkan quruluşu kimi elementlərini öyrənir və təhlil edir. Fənn tələbələrə audiovizual mətnlərin struktur və məzmun aspektlərini analiz etməyi, müxtəlif janr və formatlarda ssenari və vizual təhkiyəni qiymətləndirməyi, həmçinin təhlil nəticələrini elmi və analitik şəkildə şərh etməyi öyrədir. | |
| | **Kinoşünaslığın tarixi və metodologiyası**<br>Kinoşünaslığın tarixi inkişaf mərhələlərini, kino sənətinin estetik və sosial funksiyalarını, həmçinin kino tədqiqat metodlarını öyrətmək məqsədini daşıyır. Təhsilalanlar kinoşünaslığın klassik və müasir nəzəri istiqamətlərini, filmlərin struktur və vizual təhlilini, janr və üslub fərqliliklərini araşdırır, həmçinin kino tarixinin və nəzəriyyəsinin tədqiqi üçün metodoloji bacarıqlar qazanırlar. Fənn tələbələrə kino əsərlərini elmi və analitik baxımdan qiymətləndirməyi, müxtəlif metodoloji yanaşmaları tətbiq etməyi | |

| | | |
|---|---|---|
| | və nəticələri əsasında müvafiq elmi rəylər hazırlamağı öyrədir. | |
| | **Müasir Azərbaycan kinematoqrafiyasının nəzəri və metodoloji problemləri**<br>Müasir Azərbaycan kinematoqrafiyasının inkişaf meyillərini, nəzəri və metodoloji problemlərini dərk etmək və təhlil etmək bacarıqlarını qazandırmağa yönəlib. Təhsilalanlar milli kino məhsullarının struktur, dramaturji və vizual xüsusiyyətlərini analiz edir, müxtəlif janr və üslublarda ortaya çıxan estetik və ideya problemlərini qiymətləndirir. Fənn həmçinin müasir Azərbaycan kinosunun tarixi, sosial və mədəni kontekstdəki rolunu araşdırmaq, kino istehsalında tətbiq olunan metodologiyaları tətbiq etmək və audiovizual əsərlərin struktur və məzmun aspektlərini elmi və analitik baxımdan şərh etmək imkanlarını təmin edir. | |
| | **Müasir kino və media**<br>Bu fənn tələbələrə müasir kino və media sahəsinin inkişaf tendensiyalarını, texnoloji və estetik yeniliklərini, həmçinin vizual təhkiyə və media kommunikasiya formalarını dərk etmək və təhlil etmək bacarıqlarını formalaşdırmaq məqsədini daşıyır. Təhsilalanlar kino və media məhsullarının dramaturji və vizual strukturunu araşdırır, janr, format və auditoriya xüsusiyyətlərini qiymətləndirir. Fənn tələbələrə media və kino sahəsində nəzəri bilikləri praktik təhlillərlə birləşdirərək, audiovisual və mediaproduktlərin analitik təhlilini həyata keçirmək və nəticələr əsasında müvafiq elmi və yaradıcılıq əsaslı rəylər hazırlamaq imkanı verir. | |
| | **Müasir kinodramaturgiyada janr və üslub**<br>Kinodramaturgiyada janr və üslub fərqliliklərini dərindən anlamaq və təhlil etmək bacarıqlarını inkişaf etdirməyə yönəlib. Təhsilalanlar müxtəlif janr və üslublarda ssenari və kino əsərlərinin struktur, dramaturji və vizual xüsusiyyətlərini araşdırır, onların estetik və ideya xüsusiyyətlərini müqayisəli şəkildə qiymətləndirir. Fənn tələbələrə müasir kino dramaturgiyasının estetik prinsiplərini, janr konvensiyalarını və müəllif yanaşmalarını nəzəri və praktik kontekstdə öyrənmək, həmçinin nəticələri elmi və analitik şəkildə şərh etmək imkanını təqdim edir. | |
| | **Amerika kinosu Hollivud modelində**<br>Amerika kinosunun inkişaf tarixini, xüsusilə Hollivud modelinin struktur və estetik prinsiplərini dərindən anlamaq və təhlil etmək bacarıqlarını qazandırmağa yönəlib. Təhsilalanlar Hollivud istehsal sisteminin janr, süjet, dramaturji quruluş və vizual üslub xüsusiyyətlərini öyrənir, klassik və müasir Hollivud filmlərini müqayisəli şəkildə qiymətləndirir. Fənn həmçinin tələbələrə Amerika kino sənətinin kommersiya, sənaye və sosial aspektlərini, eyni zamanda Hollivud modelinin qlobal təsirini nəzəri və praktik baxımdan dəyərləndirmə imkanı verir. | |
| | **Audiovizual əsərlərin bədii ifadə vasitələri**<br>Audiovizual əsərlərdə bədii ifadə vasitələrinin funksiyalarını, estetik prinsiplərini və dramaturji rolunu dərindən anlamaq bacarıqlarını inkişaf etdirməyə yönəlib. Təhsilalanlar kadr, montaj, rəng, işıqlandırma, səsləndirmə, ritm, məkan və zaman kimi vizual və səslə bağlı vasitələrin təsirini təhlil edir, onların dramaturji və emosional funksiyalarını qiymətləndirir. Fənn həmçinin tələbələrə müxtəlif janr və formatlarda audiovizual təhkiyənin bədii üsullarını müqayisəli şəkildə öyrənmək, nəticələri elmi və analitik şəkildə şərh etmək imkanını təqdim edir. | |

| | | |
|---|---|---|
| | **Ali məktəb pedaqogikası və psixologiya**<br>Bu fənn ali təhsil mühitində təlim-tərbiyə prosesinin qanunauyğunluqlarını, pedaqoji fəaliyyətin prinsiplərini, tələbə psixologiyasını və pedaqoji qarşılıqlı təsirin psixoloji əsaslarını öyrətməkdir. Fənn gələcək müəllim və mütəxəssislərə pedaqoji düşüncə tərzi, psixoloji yanaşma və effektiv tədris bacarıqları formalaşdırır. | |
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər** | |
| | **a) Müasir ekran dilinin poetikası və vizual struktur**<br>Müasir ekran dilinin poetikası və vizual strukturunu anlamaq və təhlil etmək bacarıqlarını qazandırmağa və mənimsətməyə yönəlib. Təhsilalanlar ekranın kompozisiya, ritm, kadr quruluşu, rəng və işıqlandırma kimi vizual elementlərini öyrənir, onların dramaturji və estetik funksiyalarını qiymətləndirir. Fənn həmçinin tələbələrə ekran dilinin poetik prinsiplərini və vizual strukturlarını nəzəri və praktik baxımdan analiz etməyi imkan verir. | |
| | **b) Kinoşünaslığın müasir paradiqmaları**<br>Bu fənn təhsil alanlara kinoşünaslığın müasir paradiqmalarını anlamaq və tətbiq etmək bacarıqlarını inkişaf etdirməyə yönəlib. Təhsil alanlar kino nəzəriyyəsindəki müxtəlif müasir yanaşmaları, metodoloji istiqamətləri və konseptual çərçivələri öyrənir, onların kino təhlili və tədqiqatlarında tətbiqini mənimsəyir. Fənn həmçinin təhsil alanlara müasir kino paradiqmalarının nəzəri əsaslarını araşdırmaq və nəticələri analitik şəkildə şərh etmək imkanını yaradır. | |
| | **a) Possovet ölkələri kinosunun inkişaf təmayülləri**<br>Bu fənn postsovet ölkələrinin kinosunun inkişaf tendensiyalarını, janr və üslub xüsusiyyətlərini, həmçinin sosial və mədəni kontekstdəki təsirini anlamaq və təhlil etmək bacarıqlarını formalaşdırmağa yönəlib. Təhsil alanlar postsovet kino məhsullarının struktur, dramaturji və vizual xüsusiyyətlərini araşdırır, müxtəlif dövrlərdə yaranan estetik və ideya problemlərini müqayisəli şəkildə qiymətləndirir. Fənn həmçinin tələbələrə postsovet kinosunun tarixi və nəzəri aspektlərini nəzəri və praktik baxımdan təhlil etməyi və nəticələri elmi şəkildə şərh etməyi təmin edir. | |
| | **b) Audiovizual əsərlərin təhlilinin müasir metod və konseptləri**<br>Audiovizual əsərlərin təhlilində müasir metod və konseptləri anlamaq və tətbiq etmək bacarıqlarını inkişaf etdirməyə yönəlib. Təhsil alanlar müxtəlif təhlil yanaşmalarını, dramaturji və vizual strukturları, janr və üslub xüsusiyyətlərini araşdırır, həmçinin müasir tədqiqat konseptlərini nəzəri və praktik baxımdan tətbiq edir. Fənn tələbələrə audiovizual əsərlərin analitik qiymətləndirilməsi, təhlil nəticələrinin elmi əsaslarla şərh olunması və konseptual yanaşmaların praktik istifadəsi imkanını təqdim edir. | |
| | **a) Layihələrin idarə olunması**<br>Bu fənn tələbələrə layihə planlaması, təşkilatlanması, həyata keçirilməsi, monitorinqi və qiymətləndirilməsi üzrə bilik və bacarıqlar verməkdir. Fənn layihələrin idarəetməsində beynəlxalq standartları (PMI, PMBOK, Agile, Scrum və s.) öyrədərək tələbənin real iş mühitinə uyğun idarəetmə kompetensiyalarını inkişaf etdirir. | |

| | | |
|---|---|---|
| | **b) İşgüzar xarici dil**<br>Bu fənn Təhsil proqramının strukturu ümumi fənnlər bölməsində əks olunur və əsas fənnlər bölməsinin tərkibindədir. "İşgüzar xarici dil (ingilis dili)" fənni magistratura səviyyəsində təhsil alan tələbələrə ümumi və terminoloji səciyyəli 4000 tədris leksik vahidləri həcmində leksik minimumu, elmi üslubun əsas xüsusiyyətlərini, öyrənilən dil ölkələrinin mədəniyyət və adət-ənənələrini, nitq etiketləri qaydalarını öyrədir. Xarici dildə lüğətin köməyi ilə oxumaq və yazmaq vərdişlərinə, ali tədris müəssəsində tədris və tədqiqat işləri aparmağa yiyələndirir. | |
| | **a) İncəsənət və süni intellekt**<br>Bu fənn süni intellekt texnologiyalarının müasir incəsənətə təsirini, yaradıcı prosesdəki rolunu, etik və estetik məsələləri kompleks şəkildə araşdırmaq məqsədi daşıyır. Fənn tələbələrə rəqəmsal yaradıcılıq alətlərindən istifadə bacarığı qazandırmaqla yanaşı, AI-ın incəsənətin transformasiyasına gətirdiyi yeni formaları təhlil etməyə imkan verir. | |
| | **b) Milli kinorejissorluğun konseptual aspektləri**<br>Bu fənn konkret milli kontekstdə istehsal olunan filmlərin nəzəri çərçivələrini, tarixi kontekstlərini, mədəni əhəmiyyətini və bədii ifadələrini təhlil etmək və dərk etmək məqsədinə xidmət edir. Bu, milli filmlərin mədəni ifadəyə necə töhfə verdiyini, milli kimliyi formalaşdırdığını və qlobal kino ilə qarşılıqlı əlaqəsini araşdırmaq məqsədi daşıyır. | |
| | **Təcrübə** | |
| ... | **Elmi-pedaqoji təcrübə** | 6 |
| ... | **Elmi tədqiqat təcrübəsi** | 6 |
| | **Dissertasiya işi** | |
| ... | **Magistrlik dissertasiyası** | 18 |
| **CƏMİ** | | **120** |

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Ali təhsil müəssisəsi tədris, təlim və qiymətləndirmə fəaliyyətlərinin yüksək səviyyədə təşkil olunması üçün informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş müasir auditoriyalara malik olmalı, tələbələrə lokal şəbəkə və internetə, elektron kitabxanalara və onlayn arxiv resurslarına fasiləsiz çıxış imkanı yaratmalıdır. Eyni zamanda, tələbələrin ixtisaslaşma üzrə dərin biliklərə yiyələnməsi və elmi-tədqiqat işlərinin aparılmasını dəstəkləmək məqsədilə müasir elmi jurnallar, elmi məlumat bazalarına və virtual laboratoriya mühitlərinə, akademik etik mühitə inteqrasiya üçün antiplagiat sistemlərinə çıxışı təmin edilməlidir.

Ayrı-ayrı ixtisaslaşmalar üzrə aşağıdakı infrastruktur tələbləri nəzərə alınmalıdır:

***Audiovizual sənətlər tarixi və nəzəriyyəsi ixtisaslaşmaları üzrə:***

- Rəqəmsal daşıyıcılarda daşınan filmlər toplusu;
- Kino zalları;
- Audiovizual əsərlərin nümayişi üçün müvafiq otaqlar.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. Sənətşünaslıq ixtisası üzrə magistratura təhsili almış mütəxəssis dövlət qurumları, Mədəniyyət Nazirliyi, Turizm Agentliyi və yerli icra hakimiyyətlərinin mədəniyyət şöbələri; təhsil proqramları və dərsliklərin hazırlanmasında ekspert; ölkə xaricində fəaliyyət göstərən qurumlar və diplomatik korpuslarda mədəniyyət sahəsi üzrə məsul şəxs; ATM-lərin bakalavriat səviyyəsində, incəsənət yönümlü orta ixtisas, tam orta təhsil müəssisələrində pedaqoq; kütləvi informasiya mərkəzlərində jurnalist, redaktor, ekspert; Mədəniyyət tədbirləri, festivallar və simpoziumların təşkilatçısı; kino, teatr və incəsənət tənqidçisi; mədəni sahədə festivallarda sahəsi üzrə ekspert, jüri, koordinator; sahəsi üzrə müxtəlif KİV-lərdə redaktor və ekspert; sahəsi üzrə AMEA və digər elmi-tədqiqat institutlarında elmi işçi; UNESCO, ICOM, ISESCO kimi təşkilatlarda, QHT-lərdə mədəni irs, mədəni irsin qorunması, maarifləndirmə üzrə ekspert; mədəni layihələr və tədbirlərin təşkilatçılığı sahəsində işləyə bilər.

Audiovizual sənətlər tarixi və nəzəriyyəsi ixtisaslaşması üzrə magistratura təhsili almış mütəxəssis müxtəlif kino və televiziya studiyalarında tənqidçi, yaradıcı məsləhətçi; film festivallarında ekspert, kurator və ya proqram koordinatoru; dövlət və özəl mədəniyyət mərkəzləri, muzeylər, kinoteka, arxivlərdə ekspert; audiovizual məzmunun təhlili və təqdimatı üzrə tənqidçi; audiovizual əsərlərin kuratoru işləyə bilər.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

6.3. Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər.

6.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

Əlavə 1

## Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri

***Audiovizual sənətlər tarixi və nəzəriyyəsi ixtisaslaşması üzrə:***

| Proqramın təlim nəticələri (PTN) |
|---|
| **PTN 1.** Sənətşünaslıq (audiovizual sənətlər tarixi və nəzəriyyəsi) sahəsində elmi-nəzəri bilikləri və təcrübi bacarıqları mənimsəyəcək və tətbiq etməyi bacaracaq. Audiovizual sənətlərin tarixini və nəzəriyyəsinin elmi əsaslarını, qanunauyğunluqlarını, metodoloji prinsiplərini, bu sahədə elmi tədqiqatların xüsusiyyətlərini, məqsəd, vəzifə, aktual aspektlərini, istiqamətlərini müstəqil şəkildə müəyyən etməyi, tədqiqat mövzusunu formalaşdırmağı və bu sahədə elmi-tədqiqat işi aparmağı bacaracaq. Elmi-tədqiqat işini (həm ayrı-ayrı mərhələlər, bölmələr, həm də bütövlükdə) sistemli şəkildə formalaşdırıb təqdim etməyi bacaracaq. |
| **PTN 2.** Ekran sənəti, audiovizual mədəniyyət və elm sahəsində müvafiq elmi problem və mülahizələrin formalaşdırılması üçün lazımi məlumatları toplamağı, sistemləşdirb təhlil etməyi bacaracaq. Audiovizual sənətlər tarixi və nəzəriyyəsini mədəniyyətin inkişafı kontekstində tədqiq etməyi bacaracaq. Elmi-tədqiqat işinin metodları və metodologiyasının aspektlərini, problemin və tədqiqat mövzusunun seçilmə metodikasını, elmi tədqiqat fəaliyyətinin planlaşdırılması və təşkilinin müasir üsullarını, vasitələrini biləcək. |
| **PTN 3.** Müasir audiovizual proses, bədii cərəyanlar, kino, televiziya, digər ekran sənətlərinin üslub və janr formaları, sosial media tədqiqatları - media ekologiyası və informasiya cəmiyyəti nəzəriyyələri ilə bağlı elmi biliklərə malik olacaq, elmi-tədqiqat işində onlara istinad etməyi, faktları toplamağı, sistemləşdirməyi bacaracaq. Elmi tədqiqatın mərhələlərini, obyekti, predmeti və məqsədini düzgün müəyyən edərək əsaslandırmağı bacaracaq. Tamamlanmış elmi-tədqiqat işləri nəticələrinin səmərəliliyinin yoxlanılmasını və dəyərləndirilməsini bacaracaq, tətbiq sahələrini müəyyən edə biləcək. |
| **PTN 4.** Audiovizual sənətlər ilə mədəniyyət və incəsənətin digər sahələrinin qarşılıqlı əlaqəsi kontekstində mültidistiplinar tədqiqatlar aparmağı bacaracaq. Sosial-mədəni mühitin, o cümlədən, müasir tamaşaçı auditoriyasının tələbatı, audiovizual məhsulların yaradılması prosesində əldə etdiyi qənaət və nəticələri nəzərə alaraq təhlil və araşdırmalar aparmağı bacaracaq. Audiovizual məhsulların yaradılması prosesində əldə etdiyi qənaət və nəticələri nəzərə alaraq təhlil və araşdırmalar aparmaq bacaracaq. Audiovizual sahədə müxtəlif KİV-lərdə elmi-publisisitik məqalələri yazmaq və şərh etmək bacarığına malik olacaq. |
| **PTN 5.** Audiovizual əsərlərin bədii məziyyətlərini sosial, mədəni və tarixi kontekstdə təhlil edərək əsərin arxitektonikasını (onun konsepsiyasının, üslubunun, icrasının əsas xüsusiyyətlərini, forma və məzmun vəhdətini) müəyyən etməyi, müxtəlif fikirlərin müqayisəli təhlilini aparmağı bacaracaq. |
| **PTN 6.** Ədəbi-bədii tənqidi audiovizual məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilmiş fəaliyyət növü kimi başa düşəcək. Audiovizual sənətlərin tarixi və nəzəriyyəsi ilə bağlı müxtəlif yöndə müəllif mətni yaratmağı bacaracaq. Audiovizual əsərlərin yaradılmasında elmi məsləhətlər verməyi və redaktə etməyi bacaracaq. Kino sənətini təbliğ etmək üçün maarifləndirmə işləri aparmağı bacaracaq. |
| **PTN 7.** Kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına əsaslanaraq tədqiqat aparmağı bacaracaq. Kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edərək, verilənləri araşdırmağı və təhlil etməyi bacaracaq. |
| **PTN 8.** Ali təhsil sistemini, təlim prosesini, tədris metodikasını biləcək. Ali təhsil müəssisəsində ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etməklə bakalavriat səviyyəsində ixtisas fənlərini tədris etməyi |

| |
|---|
| bacaracaq. Audiovizual sənətlərin tarixi və nəzəriyyəsi sahəsində elmi-metodiki və pedaqoji səviyyədə tədris prosesini aparmağı bacaracaq. Sahə üzrə terminologiyanı və sənədləşdirməni biləcək. |
| **PTN 9.** Akademik yazı, danışıq və dürüstlüyün əsaslarını biləcək. Mənbələrdən düzgün istifadə etməklə elmi məqalə, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmağı bacaracaq. Konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışıq, nəşr etikası bacarıqlarına malik olacaq. |
| **PTN 10.** Məlumatların təhlil üçün hazırlanması və filtrasiyası, təhlil üçün sistemləşdirilməsi, vizuallaşdırılması, təhlili prosesi, növləri, toplanma mənbələri, təhlili üzrə strategiyanın qurulması və sahəyə uyğun olaraq təhlillərdə istifadə olunacaq proqram təminatları ("Excel", "SPSS" və s.) ilə tanış olacaq. İxtisas sahəsində tədqiqatlarda istifadə olunan təhlil metodları ilə təhlillər (statistik testlər və təhlillər, kəmiyyət və keyfiyyət təhlilləri, eksperimental təhlillər, anket və sorğu təhlilləri və s. kimi) aparmağı və təhlillərin əsasında müvafiq rəylər hazırlamağı bacaracaq. |

| **Tədqiqat metodları fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Elmi tədqiqatların aparılması üçün kəmiyyət və keyfiyyət tədqiqat metodlarını, onların xüsusiyyətlərini və tətbiq sahələrini fərqləndirə və məqsədyönlü şəkildə tətbiq edə biləcək. |
| FTN 2 - Fəaliyyət sahələrində tədqiqat sualının formalaşdırılması, hipotezlərin və tədqiqat dizaynının (eksperimental və ya müşahidə xarakterli) qurulması bacarığına yiyələnəcək. |
| FTN 3 - Elmi mənbələrdən (kitabxana, elmi bazalar, elektron resurslar və s.) sistematik istifadə edərək mövcud bilikləri toplaya və onlara əsasən tədqiqat çərçivəsini formalaşdıracaq. |
| FTN 4 - Toplanmış verilənlərin ölçülməsi, statistik üsullarla işlənməsi, vizualizasiya edilməsi və tədqiqat məqsədlərinə uyğun olaraq təhlilini həyata keçirəcək. |
| FTN 5 - Tədqiqat nəticələrini məntiqi strukturda təqdim etməyi, elmi məqalə və hesabatlar şəklində yazmağı, həmçinin nəticələri şifahi və yazılı formada auditoriyaya təqdim etməyi bacaracaq. |
| FTN 6 - Tədqiqatın etik və metodoloji prinsiplərinə riayət etməklə müstəqil və ya qrup halında tədqiqat aparacaq, layihə və dissertasiya işlərinin hazırlanmasında metodoloji əsasları düzgün tətbiq edə biləcək. |

| **Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2 - Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3 - Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4 - Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5 - Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6 - Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |

| Tədqiqat analitikası fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 - Məlumatların növlərini və tədqiqatın məqsədinə uyğun olaraq məlumatların toplanma üsullarını təyin etməklə elmi-tədqiqat üçün effektiv məlumat toplama strategiyası hazırlayacaq. |
| FTN 2 - Tədqiqat məqsədlərinə uyğun olaraq məlumatların ilkin emalı (təmizlənməsi, kodlaşdırılması, strukturlaşdırılması) və təhlilə hazır vəziyyətə gətirilməsi proseslərini yerinə yetirəcək. |
| FTN 3 - Fərqli proqram təminatlarında ("Excel", "EViews", "SPSS", "Python", "R", "Matlab" və s.) məlumatları analiz edərək sadə və mürəkkəb statistik göstəricilər əsasında nəticələr çıxaracaq. |
| FTN 4 - Tədqiqatlarda istifadə olunan əsas təhlil metodlarını (kəmiyyət, keyfiyyət, qarışıq və eksperimental təhlil üsulları) sahəyə uyğun şəkildə tətbiq edərək analitik nəticələr əldə edəcək. |
| FTN 5 - Analitik nəticələri vizual təqdimetmə alətləri (qrafiklər, diaqramlar, cədvəllər və s.) vasitəsilə elmi əsaslarla təqdim edəcək və nəticələri düzgün interpretasiya edəcək. |
| FTN 6 - Tədqiqat nəticələrinə əsaslanaraq məntiqi və sübutlara əsaslanan elmi rəy, tövsiyə və ümumiləşdirmələr hazırlayaraq tədqiqat hesabatları və elmi sənədlər tərtib edə biləcək. |

| Ali məktəb pedaqogikası və psixologiya fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1 - Ali təhsil müəssisələrində tədris prosesinin nəzəri və metodoloji əsaslarını izah edə biləcək. |
| FTN 2 - Müasir pedaqoji prinsiplər və təlim metodlarını dərs planlaşdırılmasında tətbiq edə biləcək. |
| FTN 3 - Auditoriya ilə effektiv ünsiyyət və təlim texnologiyalarından istifadə bacarıqları qazanacaq. |
| FTN 4 - Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə üsullarını tətbiq edəcək. |
| FTN 5 - Tədris prosesində innovativ və interaktiv metodlardan istifadə etməklə motivasiyanı artıracaq. |
| FTN 6 - Elmi-pedaqoji fəaliyyətində peşəkar standartlara riayət edərək dərs və tədqiqat işlərini təşkil edəcək. |

| Audiovizual əsərlərin sistemli və struktur təhlili fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1. Audiovizual əsərlərin struktur və vizual elementlərini sistemli şəkildə təhlil edə biləcək. |
| FTN 2. Süjet, obraz və dramaturji xüsusiyyətləri peşəkar şəkildə qiymətləndirəcək. |
| FTN 3. Müxtəlif janr və formatlarda vizual təhkiyəni analiz edə biləcək. |
| FTN 4. Audiovizual əsərlərin dramaturji və estetik aspektlərini müqayisəli şəkildə şərh edəcək. |
| FTN 5. Təhlil nəticələrini elmi və akademik kontekstdə təqdim edə biləcək. |
| FTN 6. Audiovizual əsərlərin təhlili əsasında yaradıcı və analitik nəticələr çıxara biləcək. |

| Kinoşünaslığın tarixi və metodologiyası fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1. Kinoşünaslığın tarixi inkişaf mərhələlərini və əsas nəzəri istiqamətlərini izah edə biləcək. |
| FTN 2. Kino əsərlərinin struktur, dramaturji və vizual xüsusiyyətlərini analiz edə biləcək. |
| FTN 3. Müxtəlif kino metodologiyalarını müqayisəli şəkildə tətbiq edə biləcək. |
| FTN 4. Kino nəzəriyyəsindəki klassik və müasir yanaşmaları dərk edəcək. |
| FTN 5. Kino əsərlərinin tarixi və sosial kontekstini qiymətləndirə biləcək. |
| FTN 6. Kinoşünaslıq tədqiqatları əsasında elmi və analitik nəticələr hazırlaya biləcək. |

| Müasir Azərbaycan kinematoqrafiyasının nəzəri və metodoloji problemləri fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Müasir Azərbaycan kinematoqrafiyasının inkişaf tendensiyalarını və nəzəri problemlərini izah edə biləcək. |
| FTN 2. Kino əsərlərinin dramaturji və vizual xüsusiyyətlərini təhlil edə biləcək. |
| FTN 3. Müxtəlif metodoloji yanaşmaları müqayisəli şəkildə tətbiq edə biləcək. |
| FTN 4. Azərbaycan kino sənətinin sosial və mədəni kontekstini qiymətləndirəcək. |
| FTN 5. Milli kino məhsullarının janr və üslub fərqliliklərini analiz edə biləcək. |
| FTN 6. Müasir Azərbaycan kino tədqiqatları əsasında elmi və analitik nəticələr çıxara biləcək. |

| Müasir ekran dilinin poetikası və vizual struktur fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Müasir ekran dilinin poetik prinsiplərini və vizual strukturunu izah edə biləcək. |
| FTN 2. Kadr, montaj, ritm, rəng və işıqlandırma kimi vizual vasitələrin dramaturji rolunu qiymətləndirəcək. |
| FTN 3. Müxtəlif janr və formatlarda vizual təhkiyəni təhlil edə biləcək. |
| FTN 4. Ekran dilinin poetik və dramaturji aspektlərini müqayisəli şəkildə şərh edəcək. |
| FTN 5. Audiovizual mətnlərin struktur və estetik xüsusiyyətlərini analiz edə biləcək. |
| FTN 6. Təhlil nəticələrini elmi və praktik kontekstdə təqdim edə biləcək. |

| Müasir kino və media fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Müasir kino və media məhsullarının struktur və vizual xüsusiyyətlərini izah edə biləcək. |
| FTN 2. Vizual təhkiyə və dramaturji elementləri peşəkar şəkildə təhlil edəcək. |
| FTN 3. Müxtəlif janr və formatlarda ekran məhsullarını müqayisəli şəkildə qiymətləndirəcək. |
| FTN 4. Kino və media məhsullarının estetik və ideya aspektlərini şərh edə biləcək. |
| FTN 5. Müasir kino və media tendensiyalarını nəzəri və praktik baxımdan analiz edəcək. |
| FTN 6. Təhlil nəticələrini akademik və yaradıcı kontekstdə təqdim edə biləcək. |

| Possovet ölkələri kinosunun inkişaf təmayülləri fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Postsovet ölkələri kinosunun inkişaf tendensiyalarını və xüsusiyyətlərini izah edə biləcək. |
| FTN 2. Kino əsərlərinin dramaturji və vizual elementlərini müqayisəli şəkildə təhlil edəcək. |
| FTN 3. Müxtəlif janr və üslublarda yaranan kino məhsullarının estetik və ideya aspektlərini qiymətləndirəcək. |
| FTN 4. Milli və regional kino xüsusiyyətlərini nəzərə alaraq təhlil aparacaq. |
| FTN 5. Postsovet kino məhsullarının tarixi və metodoloji kontekstini araşdıracaq. |

| |
|---|
| FTN 6. Təhlil nəticələrini elmi və praktik baxımdan şərh edə biləcək. |

| Müasir kinodramaturgiyada janr və üslub fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Müasir kinodramaturgiyada janr və üslub fərqliliklərini izah edə biləcək. |
| FTN 2. Ssenari və kino əsərlərində janr prinsiplərini tətbiq etmə bacarığını nümayiş etdirəcək. |
| FTN 3. Müxtəlif üslub və janrların dramaturji və vizual xüsusiyyətlərini təhlil edəcək. |
| FTN 4. Kinodramaturgiyada janr və üslubun tamaşaçı qavrayışına təsirini qiymətləndirəcək. |
| FTN 5. Müasir kinodramaturgiya əsərlərinin struktur və estetik xüsusiyyətlərini müqayisəli şəkildə şərh edəcək. |
| FTN 6. Təhlil nəticələrini elmi və yaradıcı kontekstdə təqdim edə biləcək. |

| Amerika kinosu Hollivud modelində fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Hollivud kino modelinin struktur və estetik prinsiplərini izah edə biləcək. |
| FTN 2. Amerika kino məhsullarının dramaturji və vizual xüsusiyyətlərini təhlil edəcək. |
| FTN 3. Klassik və müasir Hollivud filmlərini müqayisəli şəkildə qiymətləndirəcək. |
| FTN 4. Hollivud kino modelinin kommersiya, sənaye və sosial aspektlərini dərk edəcək. |
| FTN 5. Amerika kinosunun janr və üslub xüsusiyyətlərini analiz edə biləcək. |
| FTN 6. Təhlil nəticələrini elmi və yaradıcı baxımdan şərh edə biləcək. |

| Audiovizual əsərlərin bədii ifadə vasitələri fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Audiovizual əsərlərdə bədii ifadə vasitələrinin əsas prinsiplərini izah edə biləcək. |
| FTN 2. Kadr, montaj, rəng, işıqlandırma və səsləndirmə kimi vizual və akustik vasitələrin funksiyasını qiymətləndirəcək. |
| FTN 3. Müxtəlif janr və formatlarda bədii ifadə vasitələrini təhlil edəcək. |
| FTN 4. Audiovizual əsərlərin dramaturji və emosional təsirini müqayisəli şəkildə şərh edəcək. |
| FTN 5. Vizual və akustik elementlərin ssenari və rejissor baxışına təsirini dərk edəcək. |
| FTN 6. Təhlil nəticələrini elmi və yaradıcı kontekstdə təqdim edə biləcək. |

| Layihələri idarə etmək fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Layihə və layihə idarəetməsi anlayışlarını, layihənin həyat dövrünü və əsas prinsipləri nəzəri cəhətdən biləcək. |
| FTN 2. Layihə planlaması, resurs bölgüsü, büdcə və vaxt cədvəli kimi əsas idarəetmə elementlərini başa düşəcək. |
| FTN 3. Risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi və riskə cavab strategiyaları haqqında biliyə malik olacaq. |
| FTN 4. Layihələrdə keyfiyyətin idarə edilməsi, performans göstəriciləri və monitorinq metodlarını anlayacaq. |
| FTN 5. Agile, Scrum, Kanban kimi müasir layihə idarəetmə metodologiyalarını məzmun və tətbiq baxımından biləcək. |
| FTN 6. Layihə problemlərini analiz edəcək və alternativ həll yolları təklif edəcək. |

| İşgüzar xarici dil fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. İşgüzar xarici dildə (ingilis/rus və ya digər təyin olunmuş dil) peşəkar terminologiyanı və konseptləri anlayacaq. |
| FTN 2. İşgüzar kommunikasiya formalarını – rəsmi yazışma, rapor, təqdimat, görüş dilini nəzəri cəhətdən biləcək. |
| FTN 3. Beynəlxalq biznes etikası, mədəniyyətlərarası kommunikasiya normaları və rəsmi ünsiyyət qaydaları barədə bilik əldə edəcək. |
| FTN 4. İşgüzar mühitdə istifadə olunan sənədlərin (CV, cover letter, memorandum, müqavilə terminləri və s.) strukturu və üslubunu mənimsəyəcək. |
| FTN 5. İşgüzar danışıqlar zamanı argumetasiya, razılaşma, təklif vermə və müzakirə bacarıqlarından istifadə edə biləcək. |
| FTN 6. Konflikt vəziyyətlərində işgüzar xarici dildə etik və diplomatik ünsiyyət bacarığı nümayiş etdirəcək. |

| İncəsənət və süni intellekt fənn üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. İncəsənət və süni intellektin qarşılıqlı əlaqəsi, onların tarixi inkişaf mərhələləri və müasir tendensiyələri haqqında dərin bilik əldə edəcək. |
| FTN 2. Generativ AI, maşın öyrənməsi, neyron şəbəkələri kimi texnologiyaların incəsənətdə tətbiq prinsiplərini izah edə biləcək. |
| FTN 3. Rəqəmsal art, kiber-art, bio-art, interaktiv media kimi AI əsaslı incəsənət formalarının nəzəri əsaslarını biləcək. |
| FTN 4. Süni intellektin incəsənətdə istifadəsi ilə bağlı etik, hüquqi və müəlliflik məsələlərini mənimsəyəcək. |
| FTN 5. AI alətləri ilə vizual, səs, mətn və interaktiv sənət məhsulları yaratmaq bacarığı formalaşacaq. |
| FTN 6. İncəsənət nümunələrini süni intellektin təsiri baxımından təhlil etmək, semiotik, texnoloji və estetik yanaşmalar tətbiq etmək bacarığına yiyələnəcək. |

| Milli kinorejissor məktəbinin konseptual aspektləri fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Milli kino rejissorluq ənənələri haqqında dolğun təsəvvürə malik olacaq. |
| FTN 2.Milli kinonu müxtəlif nəzəri yanaşmalardan istifadə etməklə təhlil etməyi bacaracaq. |
| FTN 3. Milli kinonun identifikasıyasını təyin etməyi bacaracaq. |
| FTN 4.Milli kinonun dünya kino ənənələri ilə fərqini təyin etməyi bacaracaq. |
| FTN 5.Rejissorun sənətkar imzası, fərdi üslubu və yaradıcı strategiyalarını nəzəri səviyyədə dərk edəcək. |
| FTN 6.Kino əsərlərində milli-mədəni konteksti, folklor və ədəbiyyat motivlərini analiz etmə biliklərinə malik olacaq. |

| Adaptasiya və ekranlaşdırma fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Ədəbiyyat, teatr, folklor və digər bədii mətnlərin ekran interpretasiyası və adaptasiya prinsiplərini anlayacaq. |
| FTN 2. Kino və televiziyada adaptasiya nəzəriyyəsi, ekranlaşdırma üsulları və növləri haqqında nəzəri biliklərə malik olacaq. |
| FTN 3. Orijinal mətnlə ekran əsəri arasındakı struktur, motiv və obraz fərqlərini təhlil edə biləcək. |

| |
|---|
| FTN 4. Folklor, klassik ədəbiyyat və milli mədəni irsin ekranlaşdırma prinsiplərini dərk edəcək. |
| FTN 5. Kino dilinin elementləri – kadr, montaj, ritm, obraz sistemi, vizual metaforalar – kontekstdə izah edə biləcək. |
| FTN 6. Müxtəlif janr və formatlarda ekranlaşdırma strategiyalarını praktik layihələrdə tətbiq edəcək. |

| **Elmi-pedaqoji təcrübə üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| FTN 2 - Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3 - Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4 - Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifade etməyi öyrənəcək. |
| FTN 5 - Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6 - Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

| **Elmi tədqiqat təcrübəsi üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - İxtisas sahəsində aktual elmi-tədqiqat mövzularını müəyyənləşdirmək, tədqiqatın məqsəd ve vəzifələrini dəqiq formalaşdırmaq bacarığına malik olacaq. |
| FTN 2 - Konkret tədqiqat məqsədlərinə uyğun müasir elmi-tədqiqat metodlarını (situasiya analizi, əməliyyat-taktiki təhiil, modelləşdirmə, statistik metodlar və s.) seçmək və səmərəli tətbiq etmək bacarığına yiyələnəcək. |
| FTN 3 - Əldə etdiyi eksperimental və nəzəri məlumatların işlənməsi, sistemləşdirilməsi, nəticələrin emal edilməsi, statistik analizinin aparılması və nəticələrin şərh olunması üzrə bacarıqlar əldə edəcək. |
| FTN 4 – Aparılmış tədqiqatların nəticələrini proseslərin optimallaşdırılması, tətbiqi və innovativ texnologiyaların işlənib hazırlanması istiqamətində tətbiq etmək bacarığına malik olacaq. |
| FTN 5 - Tədqiqat nəticələrini elmi məqalə, hesabat, dissertasiya formatında təqdim etmək, elmi konfrans və seminarlarda çıxış etmək, elmi diskussiyalarda iştirak etmək bacarığı əldə edəcək. |
| FTN 6 - Tədqiqat fəaliyyətində elmi etika prinsiplərinə (plagiatın qarşısının alınması, düzgün istinad qaydaları, müəllif hüquqlarına hörmət və s.) əməl etməyi və elmi məsuliyyəti dərk etməyi öyrənəcək. |

| ***Magistrlik dissertasiyası üzrə təlim nəticələri (FTN)*** |
|---|
| FTN 1 - Tədqiqat problemini əsaslandırmaq, məqsəd və vəzifələri dəqiq müəyyənləşdirmək, kompleks plan qurmaq, nəzəri və analitik üsullarla tədqiqatı tam həcmdə yerinə yetirmək bacarığına yiyələnəcək. |
| FTN 2 - İxtisas sahəsində elmi-nəzəri və praktiki problemləri dərindən təhlil etmək, təhlükəsizlik risklərinin qiymətləndirilməsi və operativ qərarların qəbulunda müasir elmi yanaşmalar tətbiq etməklə problemlərin müstəqil həllini təqdim etmək bacarığını nümayiş etdirəcək. |
| FTN 3 - Eksperimental və nəzəri nəticələrin riyazi modelləşdirilməsi, sistemli təhlili, analiz edilməsi və ümumiləşdirilməsi üzrə səriştə qazanacaq. |
| FTN 4 – Əldə olunan elmi nəticələrin ixtisas üzrə tətbiqini əsaslandırmaq, praktik tövsiyələr hazırlamaq və innovativ yanaşmalar təqdim etmək bacarığı əldə edəcək. |
| FTN 5 - Dissertasiya işinin məzmununu elmi auditoriya qarşısında aydın, əsaslandırılmış və strukturlaşdırılmış formada təqdim etmək, müdafiə etmək və elmi müzakirələrdə iştirak etmək |

| |
|---|
| bacarığına yiyələnəcək. |
| FTN 6 - Dissertasiya işində elmi etika və intizam qaydalarına riayət etmək, müəllif hüquqlarına hörmət, istinad qaydalarına əməl etmək və öz tədqiqat fəaliyyətinə məsuliyyətlə yanaşmaq bacarığını nümayiş etdirəcək. |

Əlavə 2

## Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi

| Tədris fəaliyyətinin (fənnin) adı | Proqramın təlim nəticələri | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 | PTN 9 | PTN 10 |
| Tədqiqat metodları | x | | | x | | | x | | | |
| Akademik yazı və etika | x | x | | | | | | | x | |
| Tədqiqat analitikası | x | | | x | | | x | | | |
| Elmi-pedaqoji təcrübə | | | x | | | | | x | | x |
| Elmi tədqiqat təcrübəsi | x | x | | | | x | | | x | |
| Magistrlik dissertasiyası | | | | | x | | x | | | |
| Ali məktəb pedaqogikası və psixologiya | | | x | x | | | | | x | |
| Audiovizual əsərlərin sistemli və struktur təhlili | x | | | | | | | | | |
| Kinoşünaslığın tarixi və metodologiyası | | | | | | | | x | | |
| Müasir Azərbaycan kinematoqrafiyasının nəzəri və metodoloji problemləri | | x | | | | x | | | | |
| Müasir ekran dilinin poetikası və vizual struktur | | | x | x | | | | | | x |
| Müasir kino və media | x | | | | | | | | | |
| Possovet ölkələri kinosunun inkişaf təmayülləri | | x | | | x | | | x | | |
| Müasir kinodramaturgiyada janr və üslub | | | | | | x | | | x | |
| Amerika kinosu Hollivud modelində | x | | | | | | x | | | |
| Audiovizual əsərlərin bədii ifadə vasitələri | | | x | | | | | | | x |
| Layihələri idarə etmək | | | | | x | | | | | |
| İşgüzar xarici dil | | x | | | | | | | x | |
| İncəsənət və süni intellekt | | | | x | | | x | x | | |
| Milli kinorejissor məktəbinin konseptual aspektləri | | | | | | | | | | |
| Adaptasiya və ekranlaşdırma | | | | | x | | | | | |

**Razılaşdırıldı:**

**ADMİU-nun Tədris işləri üzrə prorektoru:** ____________ **Nigar Rüstəmova**

**ADMİU-nun Tədris şöbəsinin müdiri:** ____________ **Namiq Qafarov**

**ADMİU-nun Kinoşünaslıq və ekran dramaturgiyası kafedrasının müdiri:** ____________ **Əli Əmirov**

**ADMİU-nun Audiovizual sənətlər fakültəsinin dekanı** ____________ **Gülnarə Hüseynova**